

■ Fərid Hüseyn



## ANLAYIRAM

*Babullaoğlunun və Sipehrinin bizə sevdirdiyi Məsiağa Məhəmmədinin doğuluşuna*

Siz insanları dəqiq görməkçün yox,
böyük görməkçün - böyütməkçün
eynək taxırsız,
mən sizin gözlərinizi anlayıram.

Şərq əyninə Bağdad libası geyinib,
bombalar ölür uşaq cəsədlərində.
Mən sizin Şərqinizi anlayıram.

Sizin ömrünüzün yarısını yaşamamış
əllərim əsir,
görünür, mənim əllərimi anlayan olmadı.
İndi bu titrək əllərlə, divi buraxıb,
nəfsimi salmışam şüşəyə.
Qanım gülaba dönür canımda.

Bilirsiz, buynuzsuz qoçun heyfi
qalmadı buynuzlu qoçda, -
sonda tale oldu hər şey

Yazılanlar, soyutdu ürəkləri,
ona görə kağızda susdu sözlər.
Mənsə saitlərlə samitləri ayrı salmamaqçün yazdım.

Yaş artıqca insan dünyaya qaytarır
aldıqlarını,
bal yeyəndə unuduruq arı vızıltısını.
"İnsan nankordu", deyir KİTAB.

Siz ömrü süzüb bir əlli vurduz,
vicdan şüşəniz əskilmədi amma,
mən bu doğruluğu anlayıram.

## 25 YAŞIN ŞEİRİ

Bizi gətirib dünyaya atdılar tarixin üstünə
Tarixlə nə işimiz, əgər hər şey taledirsə
İndi daha ömrümü quş yuxusu bilirəm -
Nə vecimə göy mənim başım üstdən asılıb
Nə vecimə yer özü sərilib ayağıma.

"Yalan dünya" deyib də doğru yaşamaq olmur.
İçimdəki adamın dərdini dinləyirəm - özgə dərdləri kimi.
Güzgüdəki adamın suallarından qaçıb
təpilirəm keçmişlə gələcək arasına.
Bircə onu bilirəm sonda taledir hər şey.

Qələm Allah işidir, pozan şeytan əməli.
Sonda silinmir onsuz yazılan hər nə varsa.
Həşələnmiş qızılgül - fərəzən gün yoxdursa,
bu taqətsiz ayaqla necə çatmaq olar ki,
köhlən tozanağına.

Axirətsə gözəldi - orda unudulanlar yada salınar bir də,
bir də bəlli olar ki, unudulmurmuş heç nə.
Bir əsrlik almanın dörddə birini yedim,
Adəm halal eləsin bu günah ortaqlığın,
Allahsa bağışlasın... ...sonda hər şey taledir...

## İSTANBUL GECƏSİNƏ

Bəzən böyük şəhərlərə
hansısa xatirələrin ardıyca gəlirsən
gəlirsən ki, görəsən bizim taleyimiztək
daha nələr dəyişib?

Qürbətin gözəlliyi yəqin həm də budur ki -
səni gözləmir heç kəs...
"nə vaxtı gələcəksən?"

Yeriyirsən küçədə Hamlet addımlarıyla
qürbətin yuxusundan oyananda hər səhər
bir az da yoğunlaşır darıxmağın biləngi.

Bu sükutlu qürbətdə bu sehrli yalana
inanmaq nə gözəldi:
həyat sənin üzündən ölüm maskası alıb
sonuncu təbəssümün şəkli ancaq məndədir.
Yeriyirəm küçədə... yağış yağır... gözəldi...
Köynəyinin qoluyla uşaq silir sazını.
Hardasa bir aşiq söz verir özünə: ta bir də ağlamaram.

Ninni oxuyuram mən təzə müşküllərimə.
Qolu qandallı birini aparırlar polislər
tez-tez qanrılıb baxır azadlığa - geriyə.

## SƏNSİZLİK ƏLİFBASI

I

Sənsizlik unutduğum əlifbanı öyrədir mənə, -
A - sən yoxsan,
B - sən yoxsan...
...
Z - sən yoxsan...
canında qada var, ala bilmirəm.
hamıda qəribəm, qala bilmirəm.

II

Krossvord doldururam, -
sağa "sən yoxsan" yazıram,
sola "sən yoxsan" yazıram,
aşağıda "o yoxdu" yeri dolur,
yuxarıda da:
dörd yanım yoxluğundu.

## TƏLƏS

Elə bil fil tapdalayıb gözəlliyini
tikə-parça olub əksim gözündə.
Elə bil mıxdan əyri asılmış güzgüsən
əyri görünür önündə düzlüyüm də.
Çıx get, daha qarşımda durma
özümü sıldırımda dayanmış kimi hiss edirəm.

Yeri, yürü, yeyin ol, tələs öz taleyinə,
məndən sonra səsləməz heç kəs səni bu səslə
Amma kimsə, əlbəttə, barmağıyla çağırar.

## MİNİMALİST ŞEİRLƏR

Çiçəklər öz rənglərinə
inanmırlar -
Solurlar...

* * *

Allah bizə ömür
Verir,
insanlarsa vaxtımızı alır.

* * *

Qar üzərində yeriyirəm
ancaq
sol ayağımın izləri qalır.

* * *

Şəkil çəkdiririk nağıla dönür:
Biri var idi,
biri yox.

* * *

Ezop zəncirini açmağa qorxur,
Bilir ki,
itləri bağlayacağıq.

* * *

Müharibə:
Əsgər ağzında evlərindəki
çörəyin xəyalını çeynəyir.

* * *

Vaxt ötdükcə,
sənin günahlarını unudub
öz günahlarımı xatırlayıram.

* * *

Nitq hissələri:
Sifətlərlə sevirik,
fellərlə ayrılırıq.

* * *

Saçların dağılmır
zəlzələdən.
Könlüm əla hökumətdir.

* * *

Səni hər görəndə
qabırğalarımı sayıram
əskik gəlir.

* * *

Türkçü uşaqdan bozqurd nədir
soruşdu
Uşaqsa "heyvandır" dedi.

* * *

Mən susandan
Sən
diş ağrısına çevrilmisən.